# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 07 (1690) 15 aprel 2019 - cu il Qiymәti 50 qәpik


## Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Respublikanın 10 milyonuncu sakininin dünyaya gəlməsi münasibətilə Azərbaycan xalqını təbrik ediblər

**2019-cu il aprelin 6-da keçmiş Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün Ocaqova Nigar Çərkəz qızı ilə Həsənov Rauf Yunis oğlunun ailəsində Azərbaycanın 10 milyonuncu sakini dünyaya gəlib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva bu münasibətlə Azərbaycan xalqını və uşağın valideynlərini təbrik ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və xanımı uşağın valideynləri ilə söhbət ediblər.



## BU SAYIMIZDA



**ATU ilə Ege Universiteti arasında ikitərəfli əməkdaşlıq haqqında müqavilə imzalanıb** 3



2

**“Tibbin görən gözü” mövzusunda beynəlxalq elmi-praktik konfrans**

**Beynəlxalq Pediatriya Dərnəyinin başqanı ATU-nun qonağı olub** 2



**Rektor I kurs tələbələri ilə görüşdü** 2



# “Tibbin görən gözü” mövzusunda beynəlxalq elmi-praktik konfrans

**Azərbaycan Tibb Universiteti Səhiyyə Nazirliyi ilə birgə şüa diaqnostikasının aktual problemlərinə həsr edilmiş “Tibbin görən gözü” mövzusunda beynəlxalq elmi praktik konfrans keçirib. Konfransda respublikamızın və bir sıra xarici dövlətlərin aparıcı radioloqları iştirak ediblər.**



Dövlət himni səsləndikdən sonra ATU-nun rektoru, professor Gəray Gəraybəyli açılış nitqi ilə çıxış edib. Rektor şüa diaqnostikasının müasir dövrdə tibbin bütün sahələrində aparıcı rol oynadığını deyib və ona görə də bu mövzuda ilk dəfə məhz ATU-da keçirilən tədbirin mühüm əhəmiyyət daşıdığını bildirib: “Son illər ölkəmizdə tibbin bütün sahələrində olduğu kimi, şüa diaqnostikasında da proqressiv inkişaf gedib, paytaxtda və regionlarda açılan çoxsaylı diaqnostika mərkəzləri müasir cihaz və avadanlıqlarla təchiz olunub. Bu, dövlətimizin səhiyyənin inkişafına göstərdiyi dəstəyin bariz nümunəsidir”.



Professor G.Gəraybəyli qeyd edib ki, şüa diaqnostikası ilə bağlı müayinələrin məqsədyönlü tətbiqi düzgün müalicə taktikasının seçilməsində mühüm əhəmiyyətə malikdir.

Daha sonra konfransın qonaqları – Murat Danaçı (Türkiyə), Qalina Korjenkova (Rusiya), Rauşan Raximjanova (Qazaxıstan) da tədbirin mövzusu ilə bağlı fikirlərini açıqlayıblar. ATU-nun Şüa diaqnostikası və şüa terapiyası kafedrasının müdiri, dosent Məlahət Sultanova Azərbaycanda radiologiyanın inkişaf tarixindən söz açıb.

Qeyd olunub ki, uzun illər ərzində şüa diaqnostikası yalnız klassik rentgen müayinə üsulları ilə sərhədlənirdisə, hazırda ultrasəs müayinəsi, kompüter tomoqrafiyası, maqnit-rezonans tomoqrafiyası, pozitron-emission tomoqrafiya müayinələri kliniki praktikada aparıcı rol oynayırlar. Bu müayinə üsullarının diaqnostik imkanları ilbəil artır, tədqiq olunan patoloji proseslərin spektrləri genişlənir, xəstəlik haqqında alınan informasiyaların həcmi və keyfiyyəti yüksəlir.

Beynəlxalq tədbirdə tibbin ən aktual problemlərinin diaqnostikasından danışılıb, mübahisəli məqamlar müzakirə olunub. Konfrans zamanı “Bağırsaqların iltihabi xəstəliklərinin radioloji diaqnostikası”, “Radioloji görüntülərin artırılmış reallıq eynəklərlə interoperasion istifadəsi”, “Süd vəzi xərçənginin diaqnostikasında innovativ texnologiyaların rolu”, “Renovaskulyar xəstəliklərin invaziv radioloji müalicəsi” və digər mövzularda mühazirələr oxunub.

İki gün davam edən konfransda gənc tədqiqatçılar və rezidentlər üçün radioloji kurslar da təşkil olunub.

# Beynəlxalq Pediatriya Dərnəyinin başqanı ATU-nun qonağı olub

**Aprelin 3-də Beynəlxalq Pediatriya Dərnəyinin (İPA) başqanı professor Dr. Enver Hasanoğlu ATU-da qonaq olub və universitetin rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb.**



Professor Enver Hasanoğlu Beynəlxalq Pediatriya Dərnəyinin başçısı qismində Azərbaycan Tibb Universiteti ilə birgə müştərək layihələr icra etmək arzusunda olduğunu bildirib. O, indiyədək dəfələrlə Azərbaycana gəldiyini və bundan sonra da Azərbaycan Tibb Universiteti ilə əlaqələrini daha da gücləndirmək niyyətində olduğunu qeyd edib. Professor Hasanoğlu qardaş ölkədə doğma olan insanlarla çalışmağa önəm verdiyini və onlarla birgə işlərin yenilənməsinə ehtiyac olduğunu vurğulayıb.

Qarşılıqlı söhbət əsnasında ATU-nun rektoru, professor Gəray Gəraybəyli hörmətli qonağa Azərbaycanda pediatriya sahəsindəki vəziyyət barədə və Tibb Universitetində bu istiqamətdə aparılan tədris işlərindən danışıb. Sözünə davam edən rektor ATU ilə Beynəlxalq Pediatriya Dərnəyi arasında əlaqələrin gücləndirilməsinin vacib olduğunu bildirərək gələcəkdə həyata keçiriləcək birgə layihələrin icrasına dair fikirlərini də açıqlayıb.

ATU-nun elmi işləri üzrə prorektoru, dosent Rauf Bəylərov, ATU-nun rezidentura şöbəsinin dekan müavini Nigar Sədiyeva da görüşdə iştirak ediblər.

Görüşdə, həmçinin, Beynəlxalq Pediatriya Dərnəyinin təşəbbüsü ilə bu ilin sentyabrında Bakıda böyük bir elmi konqresin keçiriləcəyi bildirilib və nəzərdə tutulan bu tədbirlə bağlı ətraflı müzakirələr aparılıb.

Bundan başqa gələcəkdə universitetimizlə bu beynəlxalq qurum arasında qarşılıqlı əlaqələrin daha da intensivləşdirilməsinə dair razılıq əldə olunub.

# Rektor I kurs tələbələri ilə görüşdü

## Səmimi formatda keçən görüşdə bəzi məsələlərin həllinə dair göstəriş verilib

**Şənbə günü Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli I kurs tələbələri ilə 3 saat ərzində qeyri-rəsmi formatda görüş keçirib.**

Səmimi söhbət formatında keçirilən görüşdə professor Gəray Gəraybəyli tələbələrin müxtəlif məsələlərlə bağlı fikirlərini öyrənib. Qeyd olunub ki, görüşün əsas məqsədi tələbələrin istəkləri ilə tanış olmaq, onların üzləşdikləri problemləri həll etməkdən ibarətdir.

Rektor tələbələrin təhsil-tədris prosesi, müəllimlərlə münasibət, yataqxanalardakı şərait, dərsliklərlə təminat və digər mövzularda fikirlərini soruşub.

Universitet rəhbərliyi, prorektor və fakültə dekanlarının da iştirak etdiyi görüşdə tədris prosesində rast gəlinən problemlərdən danışan tələbələr İnsan anatomiyası və tibbi terminologiya, Histologiya, embirologiya və sitologiya kafedralarından şikayət ediblər. Əsas şikayətlər isə hətta 3-5 dəqiqə dərsə gecikən tələbələrin müəllimlər tərəfindən auditoriyaya buraxılmaması və dərs yükünün ağırlığı ilə bağlı olub. Tələbələr Xarici dillər və bəzi kafedralarda ayrı-ayrı müəllimlərin onlara qarşı davranışlarından da şikayətləniblər. Bəzi komendatların kobudluğu, yeməkxanalarda yeməklərin baha qiymətə olması haqqında da rektora məlumat verilib.

ATU tələbələri bəzi məsələlərin həlli üçün təkliflər irəli sürüblər. Universitetin nəzdində “Tələbə kafesi”nin yaradılması, universitet şəhərciyində tələbələrin asudə vaxtını keçirməsi, dincələ bilməsi üçün parkın salınmasını təklif ediblər.



Görüş iştirakçıları tələbələr üçün tibbi sığortanın təşkili, universitet binalarının fasadının müasir formada təmiri barədə arzularını bildiriblər. Tələbələr bəzi kafedralar tərəfindən təqdim olunan dərsliklərin sayının artırılmasına ehtiyac olduğunu da qeyd ediblər.

Birinci kurs təmsilçiləri ATU-nun xarici əlaqələrinin genişləndirilməsinin onlar üçün yeni imkanlar açdığını qeyd edərək beynəlxalq proqramlarının artırılması ilə bağlı fikirlərini çatdırıblar. Onlar son zamanlar ATU-da keçirilən tədbirlərin formatının daha maraqlı və müasir olmasından razılıqlarını bildiriblər.





Rektor Gəray Gəraybəyli və rəhbərlik nümayəndələri tələbələrin təkliflərini diqqətlə dinləyiblər. Bəzi məsələlərin həlli ilə əlaqədar dərhal göstəriş verilib. Rektor G.Gəraybəyli bu cür görüşlərin müntəzəm olaraq keçiriləcəyini bildirib.

# ATU ilə Ege Universiteti arasında ikitərəfli əməkdaşlıq haqqında müqavilə imzalanıb

**Türkiyənin Ege Universitetinin nümayəndələri Bakıya səfərləri çərçivəsində Azərbaycan Tibb Universitetində olublar**





Ege Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, professor dr. Canan Fisun Abay, Tibb Fakültəsinin dekan müavini, professor dr. Rüchan Sertöz ATU-nun kafedraları, klinikaları, eləcə də Anatomiya muzeyi ilə tanış olublar.

Professor dr. Canan Fisun Azərbaycana səfərdən məmnunluğunu bildirib: "Bakını çox bəyəndim, olduqca gözəl və müasir şəhərdir. Universitetinizi də gəzmək imkanımız oldu. Burada tibb sahəsi üzrə yüksək təhsil almaq üçün hər cür şərait var. Klinikalarınız da müasir, Avropa standartlarına uyğun avadanlıqlarla təchiz olunub".

Daha sonra ATU-nun rektoru, professor Gəray Gəraybəyli qonaqlarla görüşüb. Rektor iki universitet arasında əməkdaşlıq əlaqələrinin genişləndiyini qeyd edib: "Universitetimizdə çox qonaqlarımız olub, kifayət qədər ciddi və lazımi məsələlər danışılıb. Ege Universiteti ilə də gələcəkdə tələbə mübadiləsi, ikili diplomların tanınması və digər hər iki ali təhsil ocağı üçün yararlı olacaq məsələlər müzakirə olunub, müqavilələr imzalanıb".

Görüşdə, həmçinin, prezident İlham Əliyevin sərəncamı ilə təsdiq olunmuş "2019-2023-cü illər üçün Azərbaycanda ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın tərkib hissəsi kimi beynəlxalq ikili diplomlar məsələləri müzakirə olunub. Qeyd edilib ki, universitetlər arasında əməkdaşlıq illərdir davam edir. ATU rezidentləri Ege Universitetinin bir çox klinikalarında rotasiyalarda olub. Lakin ikitərəfli razılıq daha geniş əməkdaşlıq imkanları yaradır. Bu əməkdaşlıq Azərbaycanın Təhsil Nazirliyi tərəfindən də dəstəklənir və həyata keçirilən proqram əsasında bütün xərclər dövlət tərəfindən ödəniləcək.

Daha sonra Təhsil Nazirliyinin nümayəndəsi ilə bir sıra mövzular ətrafında müzakirələr aparılıb.

Görüşün sonunda ATU ilə Ege Universiteti arasında ikitərəfli əməkdaşlıq haqqında müqavilə imzalanıb.

Görüşdə Təhsil Nazirliyi Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli, Azərbaycan Respublikasının Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə Nəsibova, ATU-nun rektor müşaviri, dosent Zülfüqar Musabəyov, beynəlxalq işlər üzrə prorektoru, dosent Orxan İsayev, tədris hissə müdiri, dosent Samir Cavadov iştirak ediblər.

# ATU-da YAP Gənclər Təşkilatının hesabat-seçki konfransı keçirilib

**Aprelin 11-də Yeni Azərbaycan Partiyasının 800-ə yaxın üzvünü təmsil edən Azərbaycan Tibb Universitetinin fakültə, kafedra və bölmələrindən seçilmiş gənc əməkdaş və tələbədən ibarət 100 nəfər gənci birləşdirən ATU üzrə YAP Gənclər Təşkilatının hesabat-seçki yığıncağı keçirilib.**



Hesabat-seçki yığıncağını giriş nitqilə açan YAP-ın ATU üzrə ilk partiya təşkilatının sədri, universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev müstəqil respublikamızda gedən inkişaf və nailiyyətlərdən bəhs edərək ölkə rəhbərinin apardığı məqsədyönlü siyasətin uğurlarından danışıb: "Bu gün Azərbaycan gəncləri cənab Prezidentə güvənir, onun müdrik siyasətinə dəstək olurlar. Bugünkü gənclik daha savadlı, daha intellektual olmalıdırlar. Radikal düşüncələrdən uzaq olmalı, hadisələri daha düzgün analiz edərək ona uyğun qərar verməlidirlər". Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu YAP-ın ölkəmizdə ən böyük siyasi və ideoloji qüvvə hesab edildiyini söyləyən S.Əliyev bildirdi ki, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev daim gənclərimizə arxa- dayaq olub, onların problemlərini həmişə diqqət mərkəzində saxlayıb. Dövlətimizin demokratik, hüquqi əsaslara söykəndiyini vurğulayan natiq qeyd edib ki, ölkə rəhbərinin həyata keçirdiyi gənclər siyasəti nəticəsində bu gün dövlət idarəçiliyinin böyük hissəsini gənclər təşkil edir. Və heç də təsadüfi deyildir ki, böyük uğurların qazanılmasının arxasında gənclərimizin əməli fəaliyyəti durur: "Bu gün biz fəxr etməliyik ki, sabit və günü-gündən inkişaf edən on milyonluq müstəqil bir ölkənin azad vətəndaşıyıq. İndi bizim bu uğurlarımızı alqışlayanlarla yanaşı gözü götürməyənlər də var. Çox təəssüf ki, bəzi özümüzdən olan bədxahlarımız xarici qüvvələrə dəstək verir, əldə edilən bu nailiyyətlərə qara yaxmaq istəyirlər."

ATU-da son illər təhsilin keyfiyyətində bir sıra müsbət yeniliklərin olduğunu və yeni tədris proqramlarının qəbul edildiyini də önə çəkən S.Əliyev bildirib ki, günü-gündən inkişaf edən Azərbaycan Tibb Universitetində kredit sistemi ilə aparılan tam şəffaf və demokratik bir təhsil sistemi mövcuddur.

Sonra iclasın gündəliyi elan olunub və ATU üzrə YAP-ın GT-nın sədri Rauf Vəliyevin hesabat məruzəsi dinlənilib.

Məruzəçi 2018/2019- cu illər ərzində təşkilatın gördüyü layihələr və təşkil etdiyi mədəni-kütləvi tədbirlər haqqında geniş məlumat verib, təşkilatın qarşısında duran əsas vəzifələrdən danışıb. Tələbə dekanlar Məhərrəm Alimli, Fidan Həsənli və əczaçılıq fakültəsinin tələbəsi, TGT üzrə fakültə sədri Tamilla Qəhrəmanzadə hesabatı kafi qiymətləndiriblər. Hesabatı qənaətbəxş hesab edilən R.Vəliyevin fəaliyyəti muzakirə olunub və təşkilatın idarə heyətinin mövqeyi nəzərə alınaraq onun yenidən ATU üzrə YAP Gənclər Təşkilatının sədri seçilməsi səsə qoyulub, yekdilliklə qəbul edilib.

Bundan başqa ATU üzrə YAP Gənclər Təşkilatının idarə heyətinin sədri, müavinləri və 11 nəfərdən ibarət idarə heyəti seçilib. Təlimata uyğun olaraq 14 nəfər gənc isə YAP-ın Nəsimi rayon GT-



nın konfransına nümayəndə seçilib.

İclasda çıxış edən YAP-ın Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı rayon gənclərinin, xüsusilə ATU tələbələrinin partiyanın həyata keçirdiyi müxtəlif layihələrdə yaxından fəallıq göstərdiyini dilə gətirib. O, dövlət başçısının apardığı uğurlu siyasət nəticəsində ölkəmizin bütün sahələrdə, o cümlədən gənclər siyasəti üzrə möhtəşəm nailiyyətlər qazandığını deyib. "Gənclər gələcəyimizdir" şuarını səsləndirən M.İbrahimqızı gəncləri dövlətimizin siyasətini dəstəkləməyə, yad ünsürlərə qarşı ayıq-sayıq olmağa və bir vətəndaş olaraq vətənimizi qorumağa çağırıb.

Ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan bəhs edən Məlahət xanım bu sahənin inkişafı istiqamətində atılan addımlardan danışıb, yeni seçilən sədr və idarə heyətinə uğurlar arzu edib: "Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının fəaliyyətində ATU tələbələrinin rolu danılmazdır. Gənclərimiz hər zaman tədbirlərimizdə fəal iştirak edərək cənab prezidentin siyasi kursuna dəstək verirlər. Ümid edirəm ki, növbəti illər ərzində də bu aktivlik qorunub-saxlanacaq".

ATU-da gənclərin təhsil alması üçün hər cür şəraitin yaradıldığını da qeyd edən natiq universitetin rektoru, professor Gəray Gəraybəyliyə xüsusi təşəkkürünü bildirib.

İclasda YAP-ın Nəsimi rayon təşkilatının aparat rəhbəri Azər Süleymanov, ATU-dan seçilmiş gənc əməkdaşlar və tələbələr iştirak ediblər.

**M. ƏLƏKBƏRLİ**

# ATU-nun professoru İstanbul Universitetində mühazirə oxuyub

**Azərbaycan Tibb Universitetinin mütəxəssisləri mütəmadi olaraq xarici ölkələrdə master-klasslar keçir, mühazirələrlə çıxış edirlər. Bu günlərdə t.e.d., professor Vaqif Qələndərli İstanbul Universitetində mühazirə oxuyub.**



Azərbaycan Plastik Cərrahlar Assosiasiyasının sədri, professor Vaqif Qələndərli bildirir ki, aprelin 3-də İstanbul Universitetinin Tibb fakültəsində "Baş, boyun və üzün müxtəlif nahiyəsinin bərpa əməliyyatlarında yeniliklər" mövzusunda çıxış edib: "Bu sahədə ABŞ-ın Florida Universiteti tərəfindən tədris olunan dərslikdə baş və boyun nahiyəsinin bərpa əməliyyatlarında mənim yaratdığım yeni metodikanın salınması xüsusi qeyd olundu, bu metodika ilə bağlı geniş müzakirə aparıldı. Dünya səviyyəli universitetin dərsliyinin XX fəslində mənim yaratmış oldugum metodikanin tədrisi yuksək qiymətləndirildi".

Muhazirənin sonunda professor V.Qələndərliyə Təşəkkürnamə verilib. Plastik və rekonstruktiv cərrah türkiyəli həmkarları ilə birlikdə cərrahiyyə əməliyyatında da iştirak edib. Professor Vaqif Qələndərli İstanbul Universitetinin rektoru, professor Mahmut Ak və Plastik və Rekonstruktiv Cərrahiyə Ana Bilim Dalı Başqanı, professor Üfuk Eməklinin mühazirənin təşkilində böyük rolu olduğunu bildirir.

Qeyd edək ki, sözü gedən metodika ABŞ-da nüfuzlu Florida universitetində Rui Fernandesin müəllifi olduğu "Local and Regional Flaps in Head & Neck Reconstruction" A Practical Approach dərsliyinin 20-ci fəslində "Daxili döş arteriyası cərrahiyyəsi: yeni flebin təsviri" adlı bərpa üsulu rezidentlərin və bu sahənin mutəxəssisləri üçün "Vaqif Qelender" metodikası kimi tədris olunur.

Vaqif Qələndərlinin altı yeni cərrahiyyə metodu, 78 elmi əsəri xarici ölkə jurnallarında və konfranslarında nəşr olunub. O, 2 dəfə dirsəkdən qopmuş qolun 6 və 8 saatdan sonra təkrar yerinə replantasiyası (bərpa olunması) əməliyyatını müvəfəqiyyətlə həyata keçirib. 32-dən çox xarici ölkə elmi konfranslarında məruzəçi qismində iştirak edib.

**ATU-nun mətbuat xidməti**

## Fakültə Elmi Şurasının iclasında

◆ Aprelin 3-də İctimai səhiyyə Fakültə Elmi Şurasının iclası keçirilib. İclası giriş sözü ilə açan fakültənin dekanı, professor Anar Ağayev gündəlikdə duran əsas məsələlərlə iştirakçıları tanış edib.



Sonra fakültənin tələbə dekanı Fidan Həsənli, Tələbə Həmkarlar Təşkilatının sədri Ela Qocayeva, TEC-in sədri Sevinc Babayeva, Tələbə Gənclər Təşkilatının sədri Xətayə Quliyeva fəaliyyətləri, gördükləri işlər və gələcək planları ilə bağlı geniş məlumat veriblər. Fakültənin dekanı, professor A.Ağayev aktiv tələbələrə göstərdikləri nümunəvi fəaliyyətlərinə görə dekanlıq adından təşəkkürnamə təqdim edib.



Daha sonra şuranın gündəliyində duran məsələlər haqqında geniş çıxışlar olub.

ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva kafedranın illik fəaliyyəti barədə hesabat verib. Hesabatda slaydlar nümayiş etdirilib və bildirilib ki, tədrimat 8 əsas və 2 seçim fənni üzrədir. Ş.Balayeva kafedraların təqvim-mövzu planları, təşkil olunan seminarlar, mühazirələr, elmi-təcrübi işlərin hazırlanmasından söhbət açıb. Tələbələrin fənnlər üzrə geniş nəzəri bilik və təcrübi vərdişlər qazanması üçün onlara universitet rəhbərliyi tərəfindən əlverişli şərait yaradıldığını, həmçinin tədrisin keyfiyyətinin artırılması məqsədilə auditoriya və dərs otaqlarının lazımi əyani vasitələrlə təchiz olunduğunu vurğulayıb.

Sonra müxtəlif məsələlər müzakirə olunub. Fakültə Dövlət İmtahan Komissiyasının katibi, assistent İradə Mustafayeva 2018/2019-cu tədris ilində İctimai səhiyyə fakültəsinin VI kurs tələbələrinin Dövlət Attestasiyasının Obyektiv Strukturlaşdırılmış Praktik İmtahanına (OSPİ) hazırlıq məqsədilə görülən işlər barədə məlumat verərək, tələbələrin uçot vərəqələrinə baxılması və müəyyən çatışmazlıqların aradan qaldırılması yollarından danışıb. OSPİ üzrə kafedranın adı, tarixi, vaxtı, qrupun nömrəsi göstərilməklə təlim cədvəlinin tərtib olunduğunu iştirakçıların diqqətinə çatdırıb. O, həmçinin təlimlərin aprelin 10-dan mayın 10-na dək davam edəcəyini bildirib.

## Qazaxıstanlı magistrantlar ATU-da elmi təcrübə keçiblər

**Marat Ospanov adına Qərbi Qazaxıstan Tibb Universitetinin elmi-pedaqoji kadr hazırlığı üzrə magistrantları Azərbaycan Tibb Universitetinin müxtəlif kafedralarında təcrübə keçiblər. Proqram ATU-nun I Cərrahi xəstəliklər, Anesteziologiya və reanimatologiya, Histologiya, embriologiya və sitologiya, Terapevtik və pediatrik propedevtika, Ümumi gigiyena və ekologiya, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedralarında təcrübə keçiblər.**

Qazaxıstandan gələn magistrantlar elmi ədəbiyyatın toplanması, klinik və morfoloji tədqiqatların aparılma metodikası, elmi məqalələrin və dissertasiyaların tərtibi forması ilə tanış olublar, mühazirə və praktik dərslərdə iştirak ediblər.

ATU-da elmi məzuniyyətdə olan qazaxıstanlı tələbələrlə universitetin elmi işləri üzrə prorektoru, dosent Rauf Bəylərov, beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev və beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent İkram Rüstəmov görüşüblər. Görüş zamanı xarici tələbələr təcrübə haqqında təəssüratlarını bölüşüblər. Proqramın sonunda təcrübəni uğurla başa vuran tələbələrə sertifikat təqdim olunub.



## Tədris Cərrahiyyə Klinikasının illik hesabat toplantısı

**◆ ATU-nun Tədris Cərrahiyyə Klinikasında 2018-ci ilin yekunlarına həsr olunmuş toplantı keçirilib.**



Toplantıda klinikanın baş həkimi, professor Ramiz Poluxovun hesabatı dinlənilib. Onun sözlərinə görə, klinikada 14 kafedra, 29 şöbə, 405 çarpayı, 545 işçi fəaliyyət göstərir. O cümlədən, müəssisədə 381 kafedra həkimi, 51 klinika həkimi, 169 tibb bacısı, 98 kiçik tibb bacısı çalışır.

2017-ci il ilə müqayisədə ötən il klinikada ümumi xəstə sayı artaraq 111.748 nəfərdən 141.452 xəstəyə çatıb. Poliklinik xəstə sayı 91.035-dən 142.447 nəfərə qədər yüksəlib. Ötən il stasionara daxil olmuş xəstə sayı 18491 (2017-ci ildə 15.948), əməliyyat olunmuş xəstə sayı isə 10195 (2017-ci ildə 8906 nəfər), laboratoriya şöbəsinə qeydiyyat sayı isə 258.877 olub.

Klinikanın direktoru, professor Surxay Hadıyev hesabatın qənaətbəxş hesab edilə biləcəyini deyib. Direktor şöbə təmsilçilərini nizam-intizam qaydalarına daha diqqətli yanaşmağa çağırıb: "Klinika rəhbərliyi tərəfindən müəssisənin yüksək səviyyədə fəlaiyyəti üçün zəruri şərait yaradılıb. Klinika həm də tədris müəssisəsi olduğundan, biz hər bir məsələdə daha diqqətli olmalı, vətəndaşlara daha yaxşı xidmət göstərməliyik. Buna görə hər birimizdən maksimum diqqət və qayğı tələb olunur".

Sonra çıxış edənlər hesabatda qeyd olunan məqamlarla əlaqədar fikirlərini açıqlayıblar. Yekunda hesabat qəbul edilib.



## Xəstənin bağırsağından böyük ölçülü törəmə çıxarılıb

**ATU-nun Onkoloji Klinikasına müraciət edən xəstənin qarın boşluğundan böyük ölçülü törəmə çıxarılıb. Həkimlər nazik bağırsağa birləşən parazitar miomanı ətaf toxumalardan uğurla ayırmağa nail olublar.**

Əməliyyatı aparan klinikanın həkimi Əkbər İbrahimovun sözlərinə görə, 55 yaşlı xanım Ukraynadan gəlib. USM VƏ KT ilə müayinə zamanı onun qarın və çanaq boşluğunu bütünlüklə dolduran, uşaqlıq mənşəli, 35 sm ölçüsündə abdominal-pelvik törəmə aşkarlanıb.

Çəkisi 125 kq olan xəstə piylənmədən də əziyyət çəkib. Onda DVT (aşağı ətrafların dərin venoz trombozu) və PE (ağciyər trombemboliyası) amamnezi mövcud olub.

Xəstədə laparotomiya əməliyyatı icra olunub. Əməliyyat zamanı nazik bağırsaqlardakı damarlar vasitəsilə zəngin qidalanmış iri ölçülü parazitar miomaların olduğu müəyyənləşdirilib. Həkimlər xəstənin nazik bağırsağına və mezosuna zərər vermədən, törəməni bütün şəkildə ətraf toxumalardan ayıraraq çıxarıblar. Xəstə əməliyyatdan üç gün sonra evə yazılıb.

## Əməkdaşımız beynəlxalq mükafatlara layiq görülüb

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının baş müəllimi Səbinə Şadlinskaya beynəlxalq mükafata layiq görülüb. S.Şadlinskaya İJRULA – Araşdırmaların beynəlxalq jurnalı tərəfindən ömürlük üzvlük sertifikatına layiq görülüb. Həmin jurnalda elmi tədqiqatı dərc olunan ATU-nun əməkdaşı birgə tədris proqramı və araşdırmalar sahəsində qazandığı nailiyyətlərə görə təltif olunub.

Bundan əlavə, Səbinə Şadlinskaya həm də bu təşkilatın təsis etdiyi beynəlxalq mükafatların laureatı olub. O, "İnsan anatomiyası üzrə ən yaxşı araşdırmaçı" adını qazanıb. S.Şadlinskaya öz fəaliyyəti ilə innovasiyalar və texniki tədqiqatlara verdiyi töhfə üçün RULA mükafatına layiq görülüb.


RULA AWARDS
"Your Passion, Our Vision"
Research Ratna Award Of the Year '2019
RULA INNOVATION & BETTERMENT EXCELLENCE AWARD
FOR INTERNATIONAL INNOVATION & BETTERMENT EXCELLENCE IN TECHNICAL RESEARCH
BEST RESEARCHER IN HUMAN ANATOMY
Presented to
DR. SHADLINSKAYA SABINA VAGIF
Rs. S. ABUTHAHIR
Director
IJRULA & RULA AWARDS
www.rulaawards.com || www.ijrula.com || www.worldresearchcouncil.org



Sertifikatlar İJRULA təşkilatının direktoru S.Abuthahir tərəfindən bu ilin fevralında təqdim olunub.

**ATU-nun mətbuat xidməti**

# Universitetimizin professoru nüfuzlu beynəlxalq elmi jurnalın redaktoru oldu

**Azərbaycan Tibb Universitetinin mütəxəssislərinin beynəlxalq miqyasda uğurları artmaqdadır. Bu günlərdə ATU-nun təmsilçisi növbəti uğura imza atıb. Belə ki, universitetin İnsan anatomiyası və terminologiya kafedrasının müdiri, professor Vaqif Şadlinski nüfuzlu beynəlxalq elmi jurnalın baş redaktorunun müavini təyin edilib.**




"Neurology and Neuroscience Reports" adlı jurnal nevrologiya və neyroelmlər sahəsində elmi araşdırmaların, yeniliklərin təqdim olunduğu beynəlxalq resenziyalı jurnaldır. Bu nəşr qeyd olunan sahələr üzrə bütün dünyadan olan müəlliflərin məqalələrinin operativ çapını təşkil etmək üçün orijinal bir platformadır.

Jurnalda dərc olunan məqalələrdə nevrologiya və neyroelmlərlə bağlı bütün yeniliklər, aktual mövzular, praktiki klinik nəticələr yer alır. Jurnalda yer alan hesabatlar çərçivəsində həm əlyazmalar, həm tədqiqat işləri, eyni zamanda qısa məlumatlar, kitablara yazılmış rəylər və redaksiyaya göndərilmiş məktublar dərc olunur. Bu hesabatlar elmi tədqiqatçılarla yanaşı, gənc nevroloqlar və tələbələr üçün də böyük əhəmiyyət kəsb edir. Peşəkarlar burada neyrofiziologiya, degenerativ nevrologiya, cərrahi reabilitasiya və tibbin bu sahəsinə aid digər müasir metodlar haqqında maraqlı rəylər, elmi işlərlə tanış ola bilirlər.

Redaktor heyətində azərbaycanlı professor Vaqif Şadlinskinin adının da yer alması Azərbaycan elminin dünyada artan nüfuzunun növbəti göstəricisidir. Azərbaycan Tibb Universitetində çalışan yüksək ixtisaslı peşəkarların adlarının dünya miqyaslı alimlərlə birgə çəkilməsi bir daha bu ali məktəbin beynəlxalq uğurlarının artdığını nümayiş etdirir.

# "Oynaq sindromunun differensial diaqnostikası" mövzusunda mühazirə

**Aprelin 4-də Tədris Terapevtik Klinikasında ATU-nun I daxili xəstəliklər kafedrasının dosenti Adil Nuriyev V kurs tələbələri üçün "Oynaq sindromunun differensial diaqnostikası" mövzusunda geniş mühazirə oxuyub.**





O, daha çox rast gəlinən revmatoid artrit, deformasiyaedici osteoartroz, Reyter sindromu, ostroxondroz, podaqra kimi xəstəliklər haqqında ətraflı məlumat verib. Bu tip 200-ə yaxın xəstəliyin olduğunu, bəzi dərmanların, o cümlədən vərəm əleyhinə olan dərmanların da oynaqlarda dəyişikliyə gətirib çıxardığını deyib.

Əsasən oynaqların zədələnməsi ilə gedən birləşdirici toxumanın xronik autoimmun sistem iltihabi xəstəliyi olan revmatoid artritin etiologiyasından, risk faktorlarından danışan dosent A.Nuriyev adıçəkilən xəstəliyin təsnifatını və klinikasını da diqqətə çatdırıb. Qeyd edib ki, tipik halda oynağın simmetrik zədələnməsi müşahidə olunur: "İlk növbədə əl və ayaq darağı oynaqları, bilək, diz, dirsək oynaqları zədələnir. Artralgiya, şişginlik, hərəkətin səhər buxovlanması əlamətləri nəzərə çarpır. Sinovial qişanın hipertrofiyası və eksudatın toplanması sayəsində oynaqlar şişir və iyəbənzər forma alır. Palpasiya zamanı oynaqların xəmir konsistensiyalı, ağrılı olması, lokal temperaturun yüksəlməsi aşkarlanır".

Revmatoid artrit zamanı müşahidə olunan deformasiyalara da toxunan mütəxəssis xəstəliyin qeyri-oynaq təzahürlərindən, aktivlik dərəcələrindən, dayaq-hərəkət sisteminin funksional pozulmalarından da söhbət açıb.

Mühazirədə oynaqların xronik degenerativ xəstəliyi olan, əsasını oynaq qığırdağının degenerasiyası, sümük oynaq səthinin dəyişiklikləri, osteofitlərin inkişafı, oynaqların deformasiyası, mülayim təzahürlü sinovitin inkişafı təşkil edən deformasiyaedici osteoartrozun patogenezi, klinikasının əsas və ümumi əlamətləri də öz əksini tapıb. Bildirilib ki, tez-tez rast gəlinən ağır forması koksartozdur, bu, adətən oynağın funksiyasının pozulmasına və əlilliyə gətirib çıxarır.

Podaqra xəstəliyinin digər oynaq xəstəlikləri ilə oxşar və fərqli cəhətlərinə də aydınlıq gətirən mütəxəssis qeyd edib ki, podaqra purin mubadiləsinin pozulması və orqanizmdə sidik turşusunun toplanması ilə müşayət olunan metabolik xəstəlikdir: "Ən çox 50 yaşdan yuxarı kişilərdə rast gəlinir. Anamnezində bir dəfədən artıq kəskin artrit epizodu qeyd olunmalıdır. Əsasən monoartritin inkişaf etməsi və ayaqda 1-ci daraq-falanqa oynağının zədələnməsi, zədələnmiş oynaq üzərində dərinin hiperemiyası və assimmetrik şişkinliyin yaranması, kəskin artrit epizodu, gecə oynaq ağrısının başlaması, bir neçə gün davam etməsi, yerli hərarətin, qanda leykositozun və EÇS-in qalxması ilə xarakterizə olunur".

Rəngli şəkillər və slaydlarla müşayət olunan mühazirəni tələbələr böyük maraqla dinləyiblər. Mühazirənin sonunda dosent A.Nuriyev tələbələrin haqqında bəhs edilən xəstəliklərin müayinə və müalicə üsullarına aid suallarını cavablandırıb.

**Arif MƏMMƏDLİ**

# Azərbaycanlı cərrah Türkiyədə gənc mütəxəssislərə təlim keçib

**Azərbaycan Bariatrik-Metabolik Cərrahlar Assosiasiyasının sədri, ATU-nun I cərrahi xəstəliklər kafedrasının əməkdaşı, t.ü.f.d. Tariyel Ömərov martın sonunda Türkiyədə təşkil olunan kurslarda təlimçi qismində iştirak edib.**



Doktor T.Ömərov Türkiyə Bariatrik Cərrahi Dərnəyinin təşkilatçılığı ilə baş tutan "Bariatrik-Metabolik Cərrahiyyədə revizional texnikalar" mövzusunda kursun iştirakçısı olub. O, təlimin ilk günü Cərrahpaşa tibb fakültəsində, növbəti gün isə Medtronik İnnovasion Mərkəzinin heyvan laboratoriyasında təşkil olunmuş kursa qatılıb.

Qürurverici haldır ki, ATU-nun əməkdaşı yalnız kursda sıradan iştirakçşı kimi qatılmayıb, o, həmçinin Türkiyənin təcrübəli professorları ilə yanaşı işləyib. T.Ömərov kursun ikinci günü gənc cərrahlara "Praktik laparoskopik-bariatrik-metabolik cərrahi vərdişlərin həyata keçirilməsi ilə bağlı işin incəliklərini mənimsəməsinə kömək edib.

Tədbirlə bağlı təəssüratlarını bizimlə bölüşən cərrah T.Ömərov konqresin işini yüksək qiymətləndirir: "Konqresin işi çox effektiv planlanmışdı. Biz milli dərnək olaraq İstanbul Universiteti Cərrahpaşa tibb fakültəsində təşkil olunan bu konfransda dünya şöhrətli professorların işləri, həmçinin Bariatrik-Metabolik cərrahiyyənin müasir nailiyyətləri ilə yaxından tanış olduq və eyni zamanda öz təcrübələrimizə dair fikir mübadiləsi apardıq. Digər tərəfdən, gənc cərrahlara heyvan laboratoriyasında təşkil olunmuş canlı əməliyyat kurslarında təlim keçdik. Əslində, təvazökarlıqdan uzaq olaraq demək istərdim ki, ölkəmizdə bu sahə son 6 ildə yaranıb. Bu iş bizim cərrahlar tərəfindən tədqirəlayiq şəkildə irəli aparılır və dərnəyimizin bu işdə çox böyük rolu var".

Azərbaycan Bariatrik-Metabolik Cərrahlar Assosiasiyasının sədri T.Ömərov tədbirin təşkilinə və azərbaycanlı cərrahların iştirakına şərait yaratdığına görə TOSS (Turkish Obesity Surgery Society) sədri, dəyərli professor Mustafa Taşkına və təşkilati heyətə təşəkkürünü bildirib.

Bu beynəlxalq tədbirdə azərbaycanlı cərrahın təlimçi və kurs rəhbəri kimi təmsil olunması Azərbaycan səhiyyəsinin dünya standatlarına uyğun olmasını, ölkəmizdə beynəxalq səviyyəli mütəxəssislər tərəfindən uğurlu cərrahiyyə əməliyyatlarının aparılmasının göstəricisidir.

Tariyel Ömərov təmsil etdiyi qurumla birgə gələcəkdə də Azərbaycanı bütün dünyada layiqincə təmsil edəcəklərini, beynəlxalq tədbirlərdə Bariatrik-Metabolik Cərrahiyyə sahəsində ölkəmizdə aparılan işlərin təbliğ olunacağını qeyd edib. O, gələcəkdə Azərbaycanda da belə yüksək səviyyəli beynəlxalq tədbirlərin təşkil olunacağından əminliyini bildirib.

# Ortoped və travmatoloqların növbəti toplantısı olub

**Aprelin 3-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında ortoped və travmatoloqların xəstəxanalararası növbəti toplantısı olub.**



Toplantını açan Tədris Cərrahiyyə Klinikasının ortopedik və travmatoloya şöbəsinin müdiri, universitetin travmatologiya və ortopediya kafedrasının dosenti, t.ü.f.d. Cəfər Nəsirli bildirib ki, belə tədbirlərin ayda bir dəfə keçirilməsi təkcə bizdə deyil, bütün inkişaf edən ölkələrin təcrübəsində var. O, deyib ki, burada əsas məqsəd ayrı-ayrı xəstəxanalardan müraciət edilən problemli və mürəkkəb xəstəliklərin müalicəsi zamanı həkimlərin bir araya gəlməsi və onların bir-birini daha yaxından tanımasından ibarətdir. Bundan başqa ağır xəstələrin müalicəsində ortaq qərarlar qəbul etmək və bu sahədə çalışan mütəxəssislərlə birgə fikir mübadiləsi aparmaqdır. Həmçin, adı çəkilən toplantıda xəstələrin real durumu müzakirə olunur, onların ağrısız və tez sağalması üçün faydalı üsullardan söhbət açılır. Ən əsası isə yetişməkdə olan gənc ortopedik həkimlərə və rezidentlərə yeni müalicə metodlarının öyrədilməsi və onların biliyinin daha da artırılmasıdır.

Sonra "Sirkə kasasının mürəkkəb sınıqların müasir müalicəsi" mövzusunda çıxışını davam etdirən Cəfər Nəsirli tibbin bu sahəsi üzrə dünyada aparılan ən yeni metodlardan və müasir elmi-tədqiqat işlərindən bəhs edib. Onun sözlərinə görə texnologiyanın inkişafı yol-nəqliyyat hadisələrinin sayının çoxalmasına, eləcə də əvvəlki illərə nisbətən son dövrlərdə asetobulum sınıqlarının artmasına gətirib çıxarmışdır. Tarixə nəzər salan məruzəçi qeyd edib ki, keçən əsrdə asetobulum sınıqları daha çox konservativ müalicə olurdusa, XXI əsrdə müalicə seçimində ən çox cərrahi yollar üstünlük təşkil edir. Fəaliyyəti dövründə qazandığı iş təcrübəsinin ayrı-ayrı nümunələrini slayd vasitəsilə toplantı iştirakçılarına çatdıran məruzəçi bu illər ərzində əldə olunan müsbət yenilikləri də həmkarları ilə bölüşüb.

Diskussiya formasında keçən toplantı məruzəçiyə verilən suallarla daha da maraqlı olub.

**MƏNSUR**

# Mühazirələr multimedia vasitələri və xəstə nümayişi ilə keçirilir

◆ **Tədrisin keyfinin yüksəldilməsi, təhsilin səviyyəsinin artırılması və universitetimizi dünyanın ən qabaqcıl universitetləri sırasında görmək başqa kafedralar kimi travmatologiya və ortopediya kafedrası əməkdaşlarının da ən böyük arzusudur.**





Tədris Cərrahiyyə Klinikasında fəaliyyət göstərən kafedranın bütün dərs otaqları multimediya vasitələri ilə təmin olunub. Artıq kafedrada dərslər köhnə əyani vəsaitlərlə yox, ən yeni və müasir vasitələrlə keçirilir. Kafedra əməkdaşları TCK-da xəstələrin müayinə və müalicə işində də öz köməkliyini göstərir. Klinikada fizioterapiya və reabilitasiya kursu keçən xəstə Sahəddin Sadıqov 2000-ci il təvəllüdlü belə xəstələrdəndir. Xəstə 6 ay əvvəl məişət travması zəminində "müştərək travma 4-cü boyun fəqərəsinin fəsadlaşmış sınıq-çıxığı, tetraplegiya, spinal şok və sol dirsək sümüyünün sınığı" diaqnozu ilə Tovuz Mərkəzi Rayon xəstəxanasına müraciət etmişdir. Xəstənin valideyinləri bu sahədə bilikbacarığı, yüksək peşəkarlıq qabiliyyəti olan travmatologiya və ortopediya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Mahiyəddin Mirzəyevə müraciət etmişlər. Xəstənin vəziyyətinin həddən artıq ağır olduğunu nəzərə alaraq dosent M.Mirzəyev xəstənin Bakı şəhərinə ixtisaslaşdırılmış xəstəxanaya gətirilməsi mümkün olmadığı üçün müxtəlif metodlarla yerində müalicə aparmışdır. Çəkilən zəhmət öz bəhrəsini vermiş, xəstənin nevroloji statusunda getdikcə müsbət dinamika izlənilmişdir. Bir neçə həftədən sonra xəstə evə ambulator müalicəyə yazılmışdır. Xəstəni daima dosent M.Mirzəyev dinamik nəzarətdə saxlamış, müəyyən müalicə metodları, dərman preparatları təyin etmişdir. İlkin müalicə tam başa çatmış və hal-hazırda xəstə reabilitasiya məqsədi ilə ATU-nun Tədris Cərrahiyyə Kilinikasına gətirilmişdir. Müayinə zamanı aşkar olunmuşdur ki, xəstənin yuxarı ətraflarında hərəkət bərpa olunmuş və xəstə özünə qulluq etməyi bacarır. Bütün ağır travmalara məruz qalmış xəstələrin reabilitasiya keçməsi mütləq olduğu üçün klinikada bu xəstənin ətraflarının bərpası ilə müəyyən fizioterapiya prosedurlarına başlamışdır və ümumi müalicə müvəffəqiyyətlə davam etdiririlr. Xəstə S.Sadıqov hal-hazırda TCK-nın ixtisaslaşmış şöbəsində fizioterapiya və reabilitasiya kursu keçir. Xəstə əyani olaraq mühazirə zamanı müalicə profilaktika fakültəsinin IV kurs 201[a, b], 202[a,b], 203[a, b], 204[a] qruplarına nümayiş etdirilir və xəstənin müalicəsi tələbələrə geniş izah edilir. Tələbələrin suallarına dosent M.Mirzəyev geniş, əhatəli cavab verir. Beləliklə, mühazirə canlı və maraqlı keçir. Mühazirələr hər bir mövzuya uyğun xəstələrin seçilməsi, tələbələrə nümayiş etdirilməsi kafedramızda artıq ənənə xarakteri daşıyır və mühazirələrin maraqlı olması tələbələr tərəfindən sevinclə qarşılanır. Bu sahədə işimizin dahada təkmilləşdirilməsi üçün bütün əməkdaşlar öz bilik və bacarıqlarını əsirgəmir, daima elmi axtarışdadırlar. Bunun üçün yeni yollar axtarılır. Universitetimizin rəhbərliyi tərəfindən təhsildə yeni islahatların aparılması üçün atılan bütün addımlar tədrisin keyfiyyətini və təhsil səviyyəsinin artırılmasına xidmət edir bu da gələcək həkimlərin hazırlanması universitetimizdə bütün kafedralarda geniş tətbiq edilir.

**Ə.ƏHMƏDZADƏ,**
*Travmatologiya və ortopediya kafedrasının müdiri, professor*

# ATU-nun tələbələri üçün həkim müayinəsi ödənişsiz olacaq

**Azərbaycan Tibb Universitetinin Elmi Şurasının növbəti iclasında tələbələrlə bağlı mühüm qərar verilib.**



Belə ki, Şura üzvlərinin yekdiliklə səs verdiyi qərara əsasən, Azərbaycan Tibb Universitetində təhsil alan tələbələr ATU-nun klinikalarında həkim müayinəsi ödənişsiz olacaq.

Bu qərar tələbələrin sosial rifah halının daha da yaxşılaşmasına, onların xərclərinə qənaət etməsinə kömək edəcək. Eyni zamanda, tələbələrin ATU-nun klinikalarında müayinəsi həm də səhhəti ilə bağlı problemi olan tələbələrə dərhal tibbi yardım göstərilməsinə və onların problemlərinə daha operativ müdaxiləolunmasına kömək edəcək.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycan Nefroloqlar Cəmiyyəti Avropa Nefroloji Dərnəyinə üzv seçildi

**Azərbaycan Nefroloqlar Cəmiyyəti bu günlərdə Avropa Nefroloji Dərnəyinin rəsmi üzvü statusunu qazanıb. Bu haqda cəmiyyətin sədri, Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikansının həkimi Barat Yusubov məlumat verib.**



B.Yusubov qeyd edir ki, Azərbaycan Nefroloqlar Cəmiyyəti 2018-ci ildə təsis olunub: "Yarandığı gündən ilk hədəfimiz cəmiyyətin Avropada akkreditasiya olunması idi. Altı illik fəaliyyətimiz və səylərimiz nəticəsində buna nail olduq. Artıq Azərbaycan Nefroloqlar Cəmiyyəti rəsmi olaraq Avropa Nefroloji Dərnəyinin üzvü kimi təsdiqlənib".

Rəsmi üzv statusunu qazanmaq üçün Azərbaycan Nefroloqlar Cəmiyyəti Avropa qurumunun qoyduğu yüksək standart və tələblərə uyğun fəaliyyət göstərib. Avropa Nefroloji Dərnəyinə üzvlük azərbaycanlı mütəxəssislərə böyük imkan yaradır: "Ən böyük üstünlük ondadır ki, bizim cəmiyyətin üzvləri avtomatik olaraq həm də Avropa Nefroloji Dərnəyinin üzvləri sayılır. Bu, həkimlərimizin Avropada keçirilən elmi seminar və konqreslərdə iştirakı, təcrübə mübadiləsi, yeni biliklərin qazanılması baxımından böyük imkanlar açır. Üzvlüyün ən böyük üstünlüyü isə gənc həkimlərimizin Avropa Nefroloji Dərnəyinin təşkil etdiyi 6 aylıq və 1 illik təhsil proqramları, təlim və tədris kurslarında iştirak hüququnu qazanmasıdır. Ən əsası, bundan sonra Avropa Nefroloji Dərnəyində Azərbaycanın da bayrağı asılacaq. Bu da bizim üçün çox qürurvericidir."

Nefroloq Barat Yusubov bu işdə zəhməti keçən hər kəsə təşəkkürünü bildirir və cəmiyyət üzvlərinin növbəti uğurlara imza atacaqlarına inanır.

# İlk tibbi yardım zamanı əlaltı vasitələrdən istifadə

◆ Muasir dövrdə müxtəlif qəzalar zamani zədələnmiş insan həkimə çatdırılana qədər ilk tibbi yardım lazım olur.



Bəs ilk tibbi yardım üçün standart vasitələr olmadıqda nə etməli?

Buna görə hər bir kəs əlaltı vasitələrdən səmərəli istifadə etməyi bacarmalıdır.

Məsələn: sarğı materialları (bint, pambıq) olmadıqda dəsmal, yaylıq və ya başqa bir parçadan istifadə etmək mümkündür.

Zədələnmiş şəxsi daşımaq üçün xərək yoxdursa, əlaltı vasitə kimi oturacaqdan da istifadə edilir. Onu oturacağa əyləşdirdikdən sonra iki nəfər ( sağdan və soldan) oturacağı qaldırıb apara bilər. Həmçinin, zədələnmişə qucaqda, kürəkdə və yaxud qoluna girib kömək etmək olar. Bundan başqa, iki uzun taxtaya iki gödəkçə, palto kecirib əl xərəyi də düzəltmək olar. Bir uzun taxtaya odeyalın, döşək ağının uclarını baglayıb zədələnmişi daşımaq da mümkündür.

Terminal hallarda əgər zədələnmişin çənəsi qapanıbsa və ağız açan alət yoxdursa, zədələnmişin başının üstə durub iki əlinizin baş barmaqlarını onun çənəsinin üstünə, II, III, IV barmaqlarınızı isə həmin çənənin altına qoyub aşağı çəkin.

Əgər dil tutan alət yoxdursa, dilin ucundan orta xətlə 2 sm içəri sancağı yeridib baglayır, bintlə sancaq kəmərə, düyməyə və ya ilgəyə bərkidilir.

Ətrafların zədələnməsində şina əvəzi: Yuxarı ətraf sınanda, həmin ətrafı düzbucaq altında dirsəkdə büküb, gövdəyə sarımaqla hərəkətsizliyi təmin etmək olar. Aşağı ətraf zədələnərsə - taxta və ya dəmiri bir parça ilə bürüyüb ətrafa sarımaq lazımdır. Heç bir əşya tapmadıqda isə zədələnmiş ətrafı sağlam ətrafa sarıyırlar.

Arterial qanaxmada ürəyə yaxın yuxarı ətrafda, həmçinin aşağı ətrafda qanı müvəqqəti saxlamaq üçün dəri kəmərdən, burğacdan istifadə edilir.

Magistral arteriallari barmaqlarla sıxmaq və ya ətrafı maksimal gövdəyə gətirib sarımaqla venoz qanaxmalarda sıxıcı sarğı qoymaq vacibdir.

Əgər yara varsa, onun üzərinə təmiz parça qoyaraq yaradan 2-3 barmaq aşağıdan yuxarıya doğru sarımaq lazımdır.

İnsan huşunu itiribsə, naşatır spirtli pambığı 50-60 sm məsafədən ehtiyatla buruna yaxınlaşdırırlar.

Dəm qazı ilə zəhərlənmiş insana tibbi yardım göstərmək üçün əvvəlcə öz nəfəs yollarınızı qoruyun, sonra zəhərlənmişi təmiz havaya cıxarıb ürəyin qapalı masajını edin və ona süni tənəffüs verin.

Yanıqlar zamanı isə yaranı zədə törədən amildən azad etmək və üzərinə aseptik sarğı qoymaq (steril, təmiz) lazımdır.

Elektrikdən zədələnmə zamanı elektrik şəbəkəni söndürmək, quru taxta, plastik əşya ilə məftili cəkmək və ya zədələnmişin boynuna dəsmal kecirib sərt şəkildə kənara cəkmək olar.

İnsanın şirin suda boğulma hallarına rast gəlinərsə, o, dərhal sudan çıxarılır, ürəyin qapalı masajı edilir və ona süni tənəffüs verilir. Əgər şor suda batıbsa, əvvəl xilas etməli, sonra yardım göstərən şəxs bir dizi üstündə duraraq zərərçəkənin başını kənarda saxlamaqla sinəsini digər dizinin üzərinə qoymalı, kürəklərinin arasına iki əllə ritmik təzyiq göstərməlidir. Su çıxdıqdan sonra zərərçəkmiş kürəkləri üstə bərk yerə qoyulur və eyni qayda ilə ürəyin qapalı masajı edilir və süni tənəffüs verilir.

Beləliklə, bu nəticəyə gəlmək olar ki, həyat üçün təhlükəli hallarda ilk tibbi biliklərin əsaslarını hər kəsin bilməsi vacibdir.

**M.RAMAZANOVA,**
*ümumi cərrahiyyə kafedrasının assistenti*

# Tələbələr mulyaj çənələr üzərində implant qoymağı öyrənirlər

**Tibbin hər sahəsində olduğu kimi, ölkəmizdə stomatoloji sahədə də aparılan islahatları və nəzərəçarpacıq inkişafı izləməmək mümkün deyil. Bu inkişafdan təkcə cəmiyyətimiz deyil, eyni zamanda Azərbaycan Tibb Universitetinin tələbələri də yararlanmaqdadır.**



Belə ki, ATU-nun Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının dosenti Fərman Həsənov "Dişlərin implantasiyası" mövzusunda dərs dediyi ATU-nun Stomatologiya fakültəsinin III kurs tələbələrinin təkcə nəzəri biliklərə yiyələnməsi ilə kifayətlənməyib, o, eyni zamanda onların praktiki vərdişlərinin artırılması istiqamətində də təqdirəlayiq bir addım atıbdır. Belə ki, tələbələrə öz əlləri ilə maket çənələr üzərində implantlar qoymasına şərait yaradıb. Fərman Həsənovun bildirdiyinə görə, dişlərin implantasiyası, implantların qoyulma taktikası, işlənməsi və sair artıq bir neçə ildir ki, universitetdə dərs proqramına salınıb: "Amma əvvəlki illərdə bu sahəyə az vaxt verilirdisə, sevindirici haldır ki, bu ildən etibarən dərslərin sayı 5-ə çatdırılıb. Biz keçəcəyimiz dərslərdə çalışacağıq ki, həm də tələbələrə implant qoymaq üçün ağızda ölçüləri necə götürməyi, implantları hazırlıq vəziyyətinə necə gətirməyi öyrədək".

Dosent tələbələrin implant mövzusunu yüksək səviyyədə mənimsəmələri üçün hər cür şərait yaratdığı və materialla təmin etdiyi üçün "Goverment" firmasının rəhbəri Namiq Həsənova təşəkkürünü bildirib. "Cəmiyyətimizə yaxşı mütəxəssis hazırlamaq məqsədilə Namiq müəllimin universitetimizə təmənnasız təqdim etdiyi materiallar olduqca təqdirəlayiqdir. O, hər tələbəyə öz əlləri ilə qoymaq üçün bir implant hədiyyə edib. Hətta implantların qoyulması üçün hər cür ölçü materialları, ölçü götürdükdən sonra onun üzərini birləşdirmək məqsədilə abadmenlər də verib. Hansı ki, bu da bizə imkan verir ki, diş protezlənməsinin implant üzərində qoyulmasından protezlənməsinə qədər bütün incəlikləri keçəcəyimiz dərslər zamanı tələbələrə öyrədək" - deyən F.Həsənov bunun universitetdə ilk olduğunu vurğulayıb və belə bir şəraitdə dərslərin tədrisinin tələbələrin böyük sevincinə səbəb olduğunu qeyd edib.

# ATU-nun "Təbib" idman klubunun məşqçi-müəllimi «Kyokuşin Dünya Birliyi -Azərbaycan» təşkilatını yaradıb

**❍ ATU-nun "Təbib" idman klubunun məşqçi-müəllimi, beynəlxalq dərəcəli hakim, əməkdar məşqçi, 4-cü dan qara kəmər ustası Qələndər Aslanov respublikamızda fəaliyyət göstərən beynəlxalq Kyokuşin Karate təşkilatlarını birləşdirərək "KWU-Azərbaycan" (Kyokuşin Dünya Birliyi-Azərbaycan) yaradıb.**

Q. Aslanovun sözlərinə görə, təşkilatın yaradılması idmançılarımıza Kyokuşin Dünya Birliyi hərəkatında aktiv iştirakçı olmaq imkanını verir. Həm də Azərbaycanı beynəlxalq strukturlarda təmsil etmək üçün uyğun şərait yaranmış olur.

Tədbirin sonunda səsvermə yolu ilə Qələndər Aslanov "Kyokuşin Dünya Birliyi-Azərbaycan"ın, eləcə də Hakimlər Kollegiyasının sədri seçilib. Rəsmi protokollar imzalandıqdan sonra "Hakimlik" seminarı keçirilib. Seminarda beynəlxalq dərəcəli hakim Q.Aslanov ümumi qaydaları və yarışlar zamanı baş verən vəziyyətləri nəzərə almaqla testlər hazırlayıb. Bu testlər sayəsində hakimlərin səviyyələrini yoxlamaq mümkündür.



Təşkilatın yaradılmasına həsr olunmuş tədbirdə Qələndər Aslanov bildirib ki, qurumların birləşdirilməsində məqsəd Azərbaycanda Kyokuşin karate təşkilatlarının səylərini koordinasiya etməkdir: "Bunun üçün biz KWU dünya və Avropa çempionatında, eləcə də müxtəlif milli və beynəlxalq yarışlarda iştirak etmək üçün ən yaxşı idmançılarımızı seçməklə bir milli rəqabətin həyata keçirilməsini tövsiyə edirik. Bu səbəbdən biz "Kyokuşin Dünya Birliyi - Azərbaycan"ı qurmağa qərar verdik. Bu gün dünyada və Azərbaycanda Kyokuşin karate üzrə müxtəlif beynəlxalq təşkilatlar var. Biz də yeni qurumun bütün üzvləri üçün tamamilə müstəqil bir təşkilat olduğunu bəyan edirirk. "KWU – Azərbaycan"ın ümumi hədəfləri və məqsədlərini nəzərə alaraq, əlverişli hesab etdikləri formada öz təşkilatlarını və dövlətlərini inkişaf etdirmək hüquqlarını tanıyırıq".

Qeyd edək ki, ATU-nun "Təbib" idman klubunun Karate bölməsinin tələbələri də seminarda fəal iştirak ediblər. Q.Aslanovun bildirdiyinə görə, tələbələr karate idman növünə çox böyük maraq göstərirlər: "Əvvəlki illərdə karate ilə yalnız oğlanlar məşğul olurdusa, son illərdə bu idman növünə qızların da marağı böyükdür. Nəzəri və praktiki seminarların davamlı olacağını planlaşdırırıq.

Seminarlardan sonra test imtahanları keçirəcəyik və bu imtahanlarda fərqlənənləri qarşıda nəzərdə tutulan yarışlarda hakimliyə cəlb edəcəyik".

# Yeni monoqrafiya işıq üzü görüb

**Bu günlərdə ATU-nun İctimai fənnlər kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor Qoşqar Əliyevin "Letterpress" Nəşriyyat Evində "Tarix fəlsəfəsi" adlı monoqrafiyası işıq üzü görüb.**




Tarix fəlsəfəsinə həsr edilmiş monoqrafiyada əsasən proseslərin fəlsəfi mahiyyətinə diqqət çəkilib. Konseptual ideyadan çıxış edən müəllif müasir dövrdə tarixin yenidən dərk edilməsinə ehtiyac olduğunu, keçmişə yalnız faktiki materiallar əldə etmək üçün deyil, dəyərlərin necə dəyişməsini dərk etmək üçün müraciət edildiyi fikrini irəli sürür. Müəllif, həmçinin, Azərbaycan tarixi fəlsəfəsinin problemləri və inkişaf perspektivlərinin də hərtərəfli tədqiqatı ilə məşğul olub.

Monoqrafiya əsasən cəmiyyət, onun tarixi və sosial fəlsəfi problemləri ilə maraqlananlar üçün nəzərdə tutulub. Kitabdan təkcə tarixçilər deyil, həmçinin politoloqlar, filosoflar da yararlana və apardıqları araşdırmalarda istifadə edə bilərlər.

# "Global volunteer" tələbələrə təqdim olundu

**❍ ATU Tələbə Gənclər Təşkilatının və AİESEC Azərbaycan Gənclər Təşkilatının birgə təşkilatçılığı ilə "Global Volunteer" proqramının təqdimatı keçirilib.**





Təqdimatın birinci hissəsində universitetin tədris korpusunda yerləşdirilən stend vasitəsilə AİESEC nümayəndələri tələbələrə proqram haqqında məlumatlandırıblar. ATU tələbələrinə könüllülük proqramına dair bukletlər paylanılıb.

Təqdimatın seminar mərhələsində isə təşkilatın nümayəndələri "Global Volunteer" proqramına dair slayd nümayiş etdiriblər. ATU tələbələri interaktiv formada keçirilən tədbirdə fəal iştirak ediblər.

Qeyd edək ki, "Global Volunteer" proqramı gənclərə seçdikləri ölkədə təcrübə qazanarkən həm də müxtəlif ölkələrdən olan insanlarla görüşmək, yeni mədəniyyətləri araşdırmaq imkanını yaradır. Bu proqram vasitəsilə gənclər Dayanıqlı İnkişaf Məqsədləri üzərində qurulan 6-12 həftəlik layihələrə qatılaraq özünü inkişaf etdirə biləcək, həm də təcrübə qazanacaqlar. Proqram iştirakçılarına sonda beynəlxalq dərəcəli 2 sertifikat təqdim olunur.

# 11 Aprel Ümumdünya Parkinson Xəstəliyi ilə Mübarizə Günüdür

**❍ Hər il aprelin 11-də Dünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə Parkinson Xəstəliyi ilə Mübarizə Günü qeyd edilir. Həmin günün keçirilməsi xəstəlik barədə ictimaiyyətin məlumatlılığını artırmaq, xəstələrə və onların ailələrinə dəstək olmaq, həmçinin onun nəticələrini aradan qaldırmaq məqsədi daşıyır.**



Ümumdünya mübarizə gününün tarixi təsadüfən seçilməyib: xəstəliyi təsvir edən ingilis alimi və tədqiqatçısı Ceyms Parkinson 1755-ci il aprelin 11-də doğulub. XIX əsrin əvvəllərində alim onu "titrəyən iflic" adlandırıb.

Parkinson dayaq-hərəkət sistemin pozulması ilə xarakterizə olunan xəstəlikdir. Ona daha çox yaşlılar arasında rast gəlinir, lakin son illər bütün dünyada xəstəliyin əlamətləri ilə daha erkən - 40, hətta 35 yaşda da üzləşmək mümkündür.

Əllərin titrəməsi, hərəkətlərin ləngiməsi, sərbəstlikdən məhrum olma, ağrılar, hərəkət dinamikası və psixikanın pozulması xəstəliyin əsas əlamətləridir. Xəstəlik əlilliyə səbəb olur, lakin insanın şüuru pozulmur. Son illər planetdə qocaların say çoxluğu ilə əlaqədar olaraq Parkinson xəstəliyi əsl sosial problemə çevrilib. Onun öyrənilməsi sahəsində əldə edilən uğurlara baxmayaraq, təəssüf ki, tibb elmi onun müalicəsi üçün kifayət qədər səmərəli üsullara malik deyil. Əsas problem Parkinson xəstələrinin özlərinə qulluq edə bilməməsində və yaxınlarının, yaxud onlara qulluq edənlərin hazırlıqsızlığındadır. Bütün bunlar Parkinson xəstəliyini ictimai səhiyyənin vacib məsələlərindən birinə çevirir və ictimaiyyətin diqqətinin həmin xəstəliyə yönəldilməsi də elə bundan qaynaqlanır.

**ATU-nun mətbuat xidməti**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kafedranın müdiri:**
- Tibbi mikrobiologiya və immunologiya kafedrası

**Kafedraların professorları:**
- Onkologiya kafedrası - 1 yer
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- Epidemiologiya kafedrası - 1 yer
- III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 2 yer

**Kafedraların assistentləri:**
- Nevrologiya kafedrası - 2 yer (0,5 vahid)
- I cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- III daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- III daxili xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,75 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 2 yer
- Anesteziologiya və reanimatologiya kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibb terminologiya kafedrası - 2 yer

**Kafedraların baş müəllimləri:**
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası - 1 yer
- Bioloji kimya kafedrası - 1 yer
- Farmakologiya kafedrası - 2 yer
- Xarici dillər kafedrası - 1 yer

**Bioloji kimya kafedrası üzrə Elmi-Tədqiqat Laboratoriyası:**
- Baş elmi işçi - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08.

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**2018-2019-cu tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinika və laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı və surətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müəllimin bal-reytinq cədvəli.
10. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci, 7-ci və 9-cu bənddəki sənədlərin əvəzinə sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

# İctimai fənlər kafedrasında TEC-in konfransı olub

Aprelin 12-də ATU-nun İctimai fənlər kafedrasında TEC-in Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş konfransı keçirilib.





Konfransı giriş sözü ilə açan kafedranın müdiri, professor Qoşqar Əliyev ölkəmizdə böyük quruculuq işlərinin getdiyini, Azərbaycanın beynəlxalq səviyyəli, mötəbər tədbirlərə ev sahibliyi etdiyini vurğulayaraq iqtisadi, sosial, mədəni və digər sahələrdə aparılan islahat və sürətli inkişafın məhz dərin biliyi, zəngin təcrübəsi olan möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi sayəsində baş tutduğunu qeyd edib.

"Sizin hər biriniz gələcəyin potensial kadrlarısınız. Universiteti başa vurandan sonra hərəniz bir sahədə çalışacaqsınız. Bu konfransın da əhəmiyyəti ondan ibarətdir ki, burada etdiyiniz çıxışı xoş xatirələrlə xatırlayacaqsınız. Bu, sizin yaddaşınızda xoş hisslərlə qalacaqdır" - deyən professor konfransın işinə uğurlar arzulayıb. Sonra tələbələrin çıxışları başlayıb.

Mirsəftər Həşimov "Müstəqilliyimiz ümummilli lider Heydər Əliyevin nəsillərə əmanətidir", Əkbər Orucov "Ümummilli lider Heydər Əliyevin diplomatik uğurları", Günay Hüseynli "Əziz Əliyevin Azərbaycan tibbində xidmətləri haqqında", Gülmaya Əsgərova "Zərifə Əliyeva – ana, həkim və alim", Bahar Cankaya "Heydər Əliyev – müasir Azərbaycan Respublikasının memarıdır", Hadis Bahramkani "Ulu öndər Heydər Əliyev Azərbaycanda multikulturalizm siyasətinin banisidir" mövzusunda çıxış ediblər.

Bu il, həmçinin, "İmadəddin Nəsimi ili" elan edildiyindən dahi şairin həyat və yaradıcılığını əks etdirən müxtəlif səpgili çıxışlar da olub. Tələbələrdən Cəhanə Mərdanovanın "İmadəddin Nəsimi və hürufilik", Nigar Quliyevanın "Pərvaneyinicat İmadəddin Nəsimi", Ləman Bəşirlinin "İmadəddin Nəsiminin ədəbifəlsəfi məktəbi", Rəşad Abızadənin "İmadəddin Nəsimi 650. Nəsimi yaradıcılığına fəlsəfi baxış" və Famila Şafarovanın "Dahi Azərbaycan şairi Nəsiminin edam səbəbləri" mövzusunda etdiyi çıxışlar konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Konfrans öz işini geniş diskussiya və maraqlı sual-cavablarla başa çatdırıb.

**Qabil ABDULLAYEV**

## ATU-nun təmsilçisi beynəlxalq elmi konqresdə sertifikat alıb




**Türkiyənin Antalya şəhərində Türk Neonatoloji Dərnəyi tərəfindən "UNEKO 27" beynəlxalq konqresi keçirilib.**

Tədbirdə iştirak edən Azərbaycan nümayəndə heyəti arasında Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının neonatologiya şöbəsinin müdiri, həkim-neonatoloq Aygün Rüstəmxanlı da iştirak edib.

"UNEKO 27" Beynəlxalq Neonatologiya Konqresində yenidoğulmuş körpələrə qulluq, yenidoğulmuşların xəstəliklərin yeni invaziv müalicə metodlarına dair kurslar təşkil olunub. ATU-nun təmsilçisi A.Rüstəmxanlı "Yenidoğulmuşlarda neyromonitorizasiya" kursunda aktiv iştirak edərək müvafiq sertifikata layiq görülüb.

Qeyd edək ki, konfransda həm də Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin müdir müavini, neanotologiya üzrə müavin Nərgiz Şərifova da iştirak edib. Beynəlxalq elmi tədbirdə pediatriya sahəsində tanınmış mütəxəssislər, o cümlədən Kolumbiya Universitetinin professoru Richard A.Polin, Toronto Universitetinin professoru Prakesh Shah, pediatriya üzrə alman professor Berthold Koletzko, Kopenhagen Universitetinin professoru Gorm Griesen mühazirələrlə çıxış ediblər.

# Tələbəmiz İstanbul Universitetinin sertifikatı ilə təltif edilib




**Azərbaycan Tibb Universitetinin II müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Ədalət Gəncəliyev Türkiyənin ən nüfuzlu universitetlərindən olan İstanbul Universitetinin Cərrahpaşa Tibb fakültəsində keçirilən konfransda iştirak edib. Konfransda Türkiyədən, eləcə də digər ölkələrdən olan tələbələr elmi işlərini təqdim ediblər.**

O, beynəlxalq tədbirdə öz bilik və bacarığını nümayiş etdirərək "Fürner qanqrenası" mövzusunda elmi işini konfrans iştirakçılarına təqdim edib. Konfrans çərçivəsində tələbələrə Türkiyə və Fransadan dəvət edilmiş professorlar tərəfindən müxtəlif mühazirələr oxunub. Həmçinin, praktiki bacarıqlar əsasında təlimlər keçilib.

Konfransın bağlanış mərasimində Ə.Gəncəliyev rəsmi sertifikatlarla təltif olunub.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin V kurs, $47^{b}$ qrup tələbəsi Məmmədli Dilbər Fəxrəddin qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $717^{r-1}$ qrup tələbəsi Akhmedova Arzu Bahaddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $180^{c}$ qrup tələbəsi Khan Rayyan Iftequar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin IV kurs, $715^{b}$ qrup tələbəsi Akatieh Kheder Abdulmesim oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Dalivalova İra Pərviz qızına 2011-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən ümumi cərrahiyyə ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin I kurs, $118^{a-9-a}$ qrup tələbəsi Məmmədli İpək Famil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $717^{i-5}$ qrup tələbəsi Riyadh Kadhım Abdulameer oğlunun adına verilmiş Azərbaycanda müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin IV kurs, $1117^{a}$ qrup tələbəsi Verdiyev Nicat Niyyət oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

ATU-nun hazırlıq şöbəsi tərəfindən Khaled Aljdea Saddam oğlunun adına verilmiş dinləyici bileti itdiyi üçün etibarsız sayılır.

Həsənov Qədir İslam oğluna 1991-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən təcili tibbi yardım ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{a-8}$ qrup tələbəsi Aydın Kılıc Şahin oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $74^{a}$ qrup tələbəsi Novruzlu Ocaqqulu Qalib oğlunun adına verilmiş tələbə bileti və müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

İnsan anatomiyası və terminologiya kafedrasının əməkdaşları kafedranın professoru Balakişi Hüseynova bacısı

**Ofeliya xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qidalanma və kommunal gigiyena kafedrasının əməkdaşları kafedranın dosenti Qəribə Hacıyevaya qardaşı oğlu

**Vüqar Məmmədovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
**ELDAR İSMAYIL**

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98$^{c}$**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200